**“Maarifpərvərlik”**
**Azərbaycan Gənclərinin**
**İctimai Yardım Assosiasiyası**
**(MAGİYA) ictimai birliyi**

**“Education”**
**Public Support Association**
**of Youth of Azerbaijan**
**(EPSAYA) public union**

**Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 4200, Heydər Əliyev prospekti 3,**
**İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon: (0 51) 814 44 42**

---

**PRES-RELİZ – 2019**

MAGİYA ictimai birliyi 2019-cu il ərzində müxtəlif hökümət, qeyri-hökümət və beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri (tədbirləri) uğurla həyata keçirmişdir:

1. MAGİYA ictimai birliyi 28-30 iyun 2019-cu il tarixlərində Lənkəranda yerləşən “Palıdlı Sahil” İstirahət Mərkəzində **““Azərbaycanda yaşayan milli azlıqlar: mədəniyyətlərarası dialoq” mövzusunda tədbirlərin təşkili”** layihəsi çərçivəsində Azərbaycan Respublikasının 15 yaşayış məntəqəsindən (Astara, Bakı, Cəlilabad, Göygöl, İsmayıllı, Kürdəmir, Qax, Quba, Lənkəran, Naftalan, Sumqayıt, Şəmkir, Yardımlı, Yevlax, Zaqatala) olan 25 nəfər gənc üçün Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 6000 (altı min) manatlıq maliyyə dəstəyi ilə 3 günlük nəzəri-praktik konfrans (panel müzakirələr və infoturlar) təşkil etmişdir. Nəzəri-praktik konfransda müxtəlif milli azlıq və etnik qrupların nümayəndələrindən (Lahıclılar, avarlar, tatlar, ləzgilər, almanlar, kürdlər, qaraçılar, talışlar və qərbi azərbaycanlılar) ibarət 9 nəfər qız və 16 nəfər oğlan iştirak etmişdir. Qeyd edək ki, nəzəri-praktik konfransdan öncə Azərbaycanın 27 müxtəlif yaşayış məntəqəsindən (Ağdam, Ağsu, Astara, Bakı, Cəlilabad, Gəncə, Göyçay, Göygöl, Xaçmaz, İsmayıllı, Kürdəmir, Qax, Qazax, Quba, Lənkəran, Naftalan, Salyan, Sumqayıt, Şabran, Şamaxı, Şəki, Şəmkir, Tovuz, Yardımlı, Yevlax, Zaqatala, Zəngilan) 50 nəfər gənc ərizəçi (30 nəfər oğlan və 20 nəfər qız) nəzəri-praktik konfransda iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa nəzəri-praktik konfransda qonaq qismində Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəis müavini cənab Elbəy Fətəliyev iştirak edərək özünün şəxsi bilik və təcrübəsini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışdır. Nəzəri-praktik konfransda heyətlə iştirakçılar arasında multikulturalizm və toleyrantlıq sahəsində bir çox mövzular – ***“Azərbaycanda yaşayan milli azlıqlar və etnik qruplar, onların həyat tərzi, dilləri, dinləri, adət-ənənələri, mədəniyyət mərkəzləri, KİV və internet resursları”*** müzakirə olunmuşdur. Nəzəri-praktik konfransın keçirilməsi zamanı heyət müxtəlif interaktiv üsullardan, təqdimatlar, beyin həmləsi, debatlar, fokus qrup müzakirələri, interaktiv qrup işləri, enercayzerlər, iştirakçılarla və mütəxəsislərlə qarşılıqlı fikir mübadiləsi kimi fərqli metodlardan geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Bundan başqa, Lənkəran da daxil olmaqla, Lerik və Astara rayonlarına infoturlar (Lənkəran rayonu üzrə – M.A.Əliyev adına Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinə səfər, Zövlə kəndində inkişaf etdirilən həsirçilik və Separadi kəndində yaşadılan dulusçuluq sənətləri ilə tanışlıq, Separadi kəndində fəaliyyət göstərən folklor və rəqs ansamblı olan “Nənələr” qrupu ilə görüş; Lerik rayonu üzrə – dünyanın yeganə uzunömürlülər muzeyi olan Lerik rayon Uzunömürlülər Muzeyinə səfər; Astara rayonu üzrə – Astara rayon Tarix-Diyarşünaslıq Muzeyinə səfər, Astara rayonunun Ərçivan qəsəbəsindəki XIX əsrə aid Ləm və Yanar Bulaq kompleksinə səfər, Astara dənizkənarı park-bulvar kompleksinə səfər) təşkil olunmuş və iştirakçılar üçün “https://www.facebook.com/Etno-Az%C9%99rbaycan-374029680132568/” adlı Facebook səhifəsi yaradılmışdır. Tədbir zamanı iştirakçılara “FUEN – Avropa Millətlərinin Federal İttifaqı (https://www.fuen.org/)” və MAGİYA ictimai birliyinin FUEN ilə sıx əməkdaşlığı barədə də ətraflı məlumat verilmişdir. Nəzəri-praktik konfransın sonunda bütün iştirakçılara sertifikatlar, milli

azlıqlar və etnik qruplara dair müvafiq materiallar (aidiyyəti təqdimatlar və videoçarxlar) təqdim edilmişdir. Sonda bütün iştirakçılar, təşkilatçılar və qonaqlar layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına gənclər üçün belə bir aktual və faydalı layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər. Qeyd edək ki, 10 may – 10 avqust 2019-cu il tarixlərini əhatə edən 3 aylıq layihənin məqsədi Azərbaycanda yaşayan müxtəlif milli azlıqlar və etnik qrupların həyat tərzi, habelə onların dili, dini, adət-ənənələri, mədəniyyət mərkəzləri, KİV və internet resursları ilə yaxından tanış olmaq, respublikamızdakı multikulturalizm və toleyrantlıq modelini tədqiq və təbliğ etməkdən ibarətdir.





2. MAGİYA ictimai birliyi 18-20 oktyabr 2019-cu il tarixlərində Lənkəran şəhərində yerləşən "Lüks Lənkəran" otelində "**Gənclərin insan hüquqları mövzusunda maarifləndirilməsi və onlar arasında milli-mənəvi dəyərlərin təbliği**" layihəsi çərçivəsində Azərbaycan Respublikasının 14 yaşayış məntəqəsindən (Bakı, Cəbrayıl, Cəlilabad, Gəncə, Lerik, Lənkəran, Masallı, Naxçıvan, Sumqayıt, Şəmkir, Şuşa, Yevlax, Zaqatala, Zərdab) olan 25 nəfər gənc üçün Azərbaycan Respublikasının Gənclər Fondunun 7500 (yeddi min beş yüz) manatlıq maliyyə dəstəyi ilə 3 günlük nəzəri-praktik konfrans (panel müzakirələr və infoturlar) təşkil etmişdir. Nəzəri-praktik konfransda müxtəlif milli azlıqlar, azsaylı xalqlar və etnik qrupların nümayəndələrindən (yəhudilər, udinlər, xınalıqlar, tatlar, ləzgilər, talışlar, almanlar və avarlar) ibarət 13 nəfər qız və 12 nəfər oğlan iştirak etmişdir. Qeyd edək ki, nəzəri-praktik konfransdan öncə Azərbaycanın 27 müxtəlif yaşayış məntəqəsindən (Ağdam, Bakı, Balakən, Bərdə, Cəbrayıl, Cəlilabad, Gəncə, İsmayıllı, Qax, Qəbələ, Lerik, Lənkəran, Masallı, Naftalan, Naxçıvan, Saatlı, Sabirabad, Samux, Sumqayıt, Şəmkir, Şuşa, Tovuz, Ucar, Yardımlı, Yevlax, Zaqatala, Zərdab) 64 nəfər gənc ərizəçi (38 nəfər oğlan və 26 nəfər qız) nəzəri-praktik konfransda iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa nəzəri-praktik konfransda qonaq qismində Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəisi cənab Yalçın Əhmədov, ekspert qismində isə Ombudsman Aparatının Cəlilabad Regional Mərkəzinin rəhbəri cənab Ziya İsmayılov iştirak edərək özlərinin şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışlar. Nəzəri-praktik konfransda heyətlə iştirakçılar arasında multikulturalizm və toleyrantlıq sahəsində bir çox mövzular – ***"Fundamental insan hüquqları, Azərbaycanda yaşayan milli azlıqlar, azsaylı xalqlar və etnik qruplar, onların həyat tərzi, dilləri, dinləri, adət-ənənələri, mədəniyyət mərkəzləri, KİV və internet resursları"*** müzakirə olunmuşdur. Nəzəri-praktik konfransın keçirilməsi zamanı heyət müxtəlif interaktiv üsullardan, təqdimatlar, beyin həmləsi, debatlar, fokus qrup müzakirələri, interaktiv qrup işləri, enercayzerlər, iştirakçılarla və mütəxəsislərlə qarşılıqlı fikir mübadiləsi kimi fərqli metodlardan geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Bundan başqa, Lənkəran da daxil olmaqla, Lerik və Astara rayonlarına infoturlar (Lənkəran rayonu üzrə – M.A.Əliyev adına Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinə səfər, Zövlə kəndində inkişaf etdirilən həsirçilik, Separadi kəndində yaşadılan dulusçuluq və Talış kəndində bambuqdan məmulatların hazırlanması sənətləri ilə tanışlıq, Separadi kəndində

fəaliyyət göstərən folklor və rəqs ansamblı olan “Nənələr” qrupu ilə görüş; Lerik rayonu üzrə – dünyanın yeganə uzunömürlülər muzeyi olan Lerik rayon Uzunömürlülər Muzeyinə səfər; Astara rayonu üzrə – Astara rayon Tarix-Diyarşünaslıq Muzeyinə səfər, Astara rayonunun Ərçivan qəsəbəsindəki XIX əsrə aid Ləm və Yanar Bulaq kompleksinə səfər, Astara dənizkənarı park-bulvar kompleksinə səfər) təşkil olunmuş və iştirakçılara ictimai birliyin “https://www.facebook.com/Etno-Az%C9%99rbaycan-374029680132568/” adlı Facebook səhifəsi təqdim edilmişdir. Tədbir zamanı iştirakçılara “FUEN – Avropa Millətlərinin Federal İttifaqı (https://www.fuen.org)” və MAGİYA ictimai birliyinin FUEN ilə sıx əməkdaşlığı barədə də ətraflı məlumat verilmişdir. Nəzəri-praktik konfransın sonunda bütün iştirakçılara sertifikatlar, milli azlıqlar, azsaylı xalqlar və etnik qruplara dair müvafiq materiallar (aidiyyəti təqdimatlar və videoçarxlar) təqdim edilmişdir. Tədbirin sonunda bütün iştirakçılar, təşkilatçılar və qonaqlar layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Gənclər Fonduna gənclər üçün belə bir aktual və faydalı layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər. Qeyd edək ki, 01 sentyabr – 01 dekabr 2019-cu il tarixlərini əhatə edən 3 aylıq layihənin məqsədi insan hüquqları və milli-mənəvi dəyərlərin təbliği sahəsində Azərbaycanda yaşayan milli azlıqlar, azsaylı xalqlar və etnik qruplardan olan gənclərin ölkə miqyasında maarifləndirilməsini və məlumatlandırılmasını təşkil etmək, onların həyat tərzi, dili, dini, adət-ənənələri, mədəniyyət mərkəzləri, KİV və internet resursları ilə yaxından tanış olmaq, respublikamızdakı multikulturalizm və toleyrantlıq modelini tədqiq və təbliğ etməkdən ibarətdir.






*MAGİYA ictimai birliyinin Mətbuat Katibliyi*

*30 dekabr, 2019-cu il*